Building a better
working world

İyun 2023

# Hüquq və vergi məsələləri üzrə bülleten

Azərbaycan Respublikası qanunvericiliyində baş vermiş dəyişikliklərə dair yenilənmiş bələdçi



# Hüquqi yeniliklər

Bu buraxılışda aşağıdakı məsələlərin icmalını diqqətinizə çatdırmaq istərdik:

- Miqrasiya Məcəlləsinə mühüm dəyişikliklər
- Kritik informasiya strukturları üçün yeni qaydalar
- Konstitusiya Məhkəməsinin əmək qanunvericiliyi barədə qərarı
- Mərkəzi Bankın Kibertəhlükəsizlik Strategiyası

## Miqrasiya Məcəlləsinə mühüm dəyişikliklər

*4 aprel 2023-cü il tarixində Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (Dəyişiklik) qəbul edilmişdir.*

Dəyişiklik müvəqqəti yaşayış icazəsinin (MYİ) və daimi yaşayış icazəsinin (DYİ) alınması və müddətinin uzadılması üçün qaydalara dəyişiklik edilməsini nəzərdə tutur.

MYİ alınması və müddətinin uzadılması üzrə meyarlarla bağlı dəyişikliklər:

1) Ölkə iqtisadiyyatına azı 500.000 manat məbləğində investisiya qoyuluşu ilə bağlı meyar genişləndirilmişdir və ümumi məbləğə dövlət qiymətli kağızları, daşınmaz əmlak və əmanətlərin həddi də daxil edilir.

2) Yeni əsas əlavə olunmuşdur: Nominal dəyəri azı 100.000 manat olan dövlət qiymətli kağızlarına və ya eyni həcmdə paylarının (səhmlərinin) 51 və daha artıq faizi dövlətə məxsus olan hüquqi şəxslərin investisiya qiymətli kağızlarına malik olmaq . Bu əsasla MYİ alan şəxslərin siyahısı 3 iş günü ərzində Dövlət Miqrasiya Xidməti tərəfindən Milli Depozit Mərkəzinə göndərilməlidir. Belə qiymətli kağızların ümumi nominal dəyəri 100.000 manatdan aşağı düşdükdə və ya həmin qiymətli kağızlar özgəninkiləşdirildikdə bu barədə Dövlət Miqrasiya Xidmətinə məlumat verilməlidir.

3) Hüquqi şəxsin rəhbər vəzifəsini tutan və ya hüquqi şəxsin paylarının (səhmlərinin) azı 51 faizinə sahib şəxs o halda MYİ almaq hüququna malikdir ki, (i) hüquqi şəxs Azərbaycan Respublikasında təsis edilmiş olsun, (ii) təsisçisi və ya təsisçilərdən ən azı biri xarici hüquqi və ya fiziki

şəxs olsun və (iii) ödənilmiş nizamnamə kapitalı İqtisadiyyat Nazirliyi (Nazirlik) tərəfindən təsdiq edilmiş miqdardan az olmasın.

4) sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər, bir şərtlə ki işçilərinin azı 80%-i aşağıda nəzərdə tutulan şəxslərdən olsun:

- Azərbaycan Respublikasının ərazisində DYİ-si olanlar;
- Azərbaycan Respublikasının vətəndaşı ilə nikahda olanlar, bir şərtlə ki, həmin vətəndaş Azərbaycan Respublikasının ərazisində yaşayış yeri üzrə qeydiyyatda olsun;
- qaçqın statusunun verilməsi üçün vəsatət verən, qaçqın statusu almış və ya siyasi sığınacaq verilmiş şəxslər;
- İnsan alverindən zərər çəkmiş hesab edilən və ya cinayət təqibi orqanlarına yardım göstərən şəxslər;
- Himayəsində 18 yaşına çatmamış və ya əlilliyi müəyyən edilmiş Azərbaycan Respublikasının vətəndaşı olanlar.

*Qeydlər:*

1. 3 və 4-cü bəndlər investisiya təşviqi sənədinə və ya “Startap” şəhadətnaməsinə malik olan, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş iqtisadi rayonlarda fəaliyyət göstərən sahibkarlıq subyektlərinə, habelə qeyri-kommersiya hüquqi şəxslərinə, sənaye parkının, sənaye məhəlləsinin və aqroparkın rezidentlərinə şamil olunmur.
2. 3 və 4-cü bəndlərdə nəzərdə tutulan əsaslarla azı 1 il Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamış əcnəbiyə və vətəndaşlığı olmayan şəxsə münasibətdə həmin hallar o vaxt müvəqqəti yaşamaq icazəsinin verilməsi (müddətinin uzadılması) üçün əsas hesab edilir ki, onların dövriyyəsi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi həcmdə olsun. Bu halda MYİ üçün müraciət zamanı vergi orqanından əldə edilmiş və son bir ilin vergi bəyannaməsi üzrə dövriyyəni təsdiq edən sənəd təqdim edilir.

<u>DYİ ilə bağlı dəyişikliklər</u>

Əvvəllər DYİ üçün müraciət etməsi nəzərdə tutulan şəxslər artıq yalnız aşağıdakı hallarda DYİ almaq hüququna malik olacaqlar:

- Atası, anası, əri (arvadı), övladı, bacısı və ya qardaşı Azərbaycan Respublikasının vətəndaşı olduqda;
- ölkə iqtisadiyyatına qoyduğu investisiya məbləğinin cəmi azı 500.000 manat olduqda;
- Azərbaycan Respublikasında fəaliyyət göstərən banklarda müddətli əmanət müqaviləsi əsasında azı 200.000 manat məbləğində pul vəsaiti olduqda (bu şəxslərin siyahısı müvafiq banklarda saxlanılır);
- nominal dəyəri azı 200.000 manat olan dövlət qiymətli kağızlarına və ya eyni həcmdə paylarının (səhmlərinin) 51 və daha artıq faizi dövlətə məxsus olan hüquqi şəxslərin investisiya qiymətli kağızlarına malik olduqda (belə şəxslərin siyahısı Milli Depozit Mərkəzində saxlanılır).
- Azərbaycan Respublikasının ərazisində azı 200.000 manat dəyərində daşınmaz əmlakı olduqda;
- İqtisadiyyat, sənaye, hərbi, elm, mədəniyyət, idman və digər sahələr üzrə yüksək səviyyəli mütəxəssis olduqda;

- Azərbaycan Respublikasının ərazisində daimi yaşayan əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin ailə üzvü olduqda;
- Xarici hüquqi şəxsin Azərbaycan Respublikasındakı filial və nümayəndəliyinin rəhbəri və onun müavini vəzifəsini tutduqda;
- Nizamnamə kapitalı və dövriyyə tələblərini qarşılayan və Azərbaycan Respublikasında təsis edilmiş hüquqi şəxsin təsisçisi və ya təsisçilərindən biri olduqda;
- Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti ilə məşğul olduqda, o şərtlə ki, dövriyyə tələbi qarşılanmış olsun.

Nizamnamə kapitalı və dövriyyə ilə bağlı tələblər qeyri-kommersiya hüquqi şəxslərə şamil olunmur.

DYİ-nin alınması və ya müddətinin uzadılması üçün əsas Qanun qüvvəyə minənədək DYİ almış şəxslərin də DYİ alması və ya müddətini uzatması üçün əsas hesab edilir.

Qanun 16 may 2023-cü il tarixində qüvvəyə minmişdir.

## Kritik informasiya strukturları üçün yeni qaydalar

*11 aprel 2023-cü il tarixində "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Qanun qəbul olunmuşdur (Dəyişiklik).*

Dəyişiklik kritik informasiya strukturlarına münasibətdə aşağıdakı yeni qaydaları təqdim edir:

- İnformasiya sistemlərinin, avtomatlaşdırılmış idarəetmə sistemlərinin və informasiya-kommunikasiya şəbəkələrinin sahibləri (istifadəçiləri) kritik informasiya infrastrukturu obyektlərinin müəyyən edilməsi məqsədilə səlahiyyətli orqan tərəfindən sorğu edilən məlumatları həmin orqana 30 gün müddətində təqdim etməlidirlər.

- Kritik informasiya infrastrukturu subyektlərinə xidmət göstərən kibertəhlükəsizlik xidməti provayderinin təsisçisi və onun səlahiyyətli nümayəndəsi, eləcə də provayderin kritik informasiya infrastrukturunun təhlükəsizliyi üzrə fəaliyyətinə rəhbərlik edən şəxs və bu fəaliyyətə cəlb edilmiş digər əməkdaşlar Azərbaycan Respublikasının vətəndaşı olmalıdırlar.

- Səlahiyyətli orqan kritik informasiya infrastrukturunun təhlükəsizliyi üzrə tələblərə riayət olunmasını kritik informasiya infrastrukturu subyektindən tələb edə bilər.

Qanun kritik informasiya infrastrukturunu dövlət idarəçiliyi, müdafiə, səhiyyə, maliyyə bazarları, energetika, nəqliyyat, informasiya texnologiyaları, telekommunikasiya, su təchizatı və ya ekologiya sahəsində fəaliyyəti təmin edən və funksionallığının pozulması dövlətin, cəmiyyətin və vətəndaşların maraqlarına mühüm zərər vura bilən informasiya sistemlərinin, avtomatlaşdırılmış idarəetmə sistemlərinin və informasiya-kommunikasiya şəbəkələrinin məcmusu kimi müəyyən edir.

Dəyişiklik 25 may 2023-cü il tarixindən qüvvədədir.

## Konstitusiya Məhkəməsinin əmək qanunvericiliyi barədə qərarı

*11 aprel 2023-cü il tarixində Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu "Əmək Məcəlləsinin 172-ci maddəsinin 5-ci hissəsinin şərh edilməsinə dair" qərar qəbul etmişdir.*

Qərara əsasən, Əmək Məcəlləsinin 172-ci maddəsinin 5-ci hissəsində nəzərdə tutulmuş "hər gecikdirilmiş gün üçün işçiyə əmək haqqının azı bir faizi məbləğində ödənc verilməlidir" müddəası fərdi əmək mübahisəsinin yarandığı hallara da şamil edilir. Qərar qəbul edilməzdən əvvəlki dövrdə bu müddəanın mövcud fərdi əmək mübahisələrində tətbiqi qeyri-müəyyənliyə yol açırdı.

## Mərkəzi Bankın Kibertəhlükəsizlik Strategiyası

*Dünya Bankı Qrupunun üzvü olan Beynəlxalq Maliyyə Korporasiyasının (IFC) dəstəyi ilə Mərkəzi Bank tərəfindən 2023-2026-cı illər üzrə "Maliyyə bazarlarında kibertəhlükəsizlik Strategiyası" (Strategiya) hazırlanaraq təsdiqlənmişdir.*

Bu Strategiyanın vizyonu maliyyə sabitliyinin təmin edilməsi məqsədilə artan kibertəhdidlər fonunda ölkənin maliyyə bazarlarında kiber dayanıqlığın gücləndirilməsidir.

Odur ki, Strategiya özündə beş strateji prioritet üzrə fəaliyyəti əhatə edərək maliyyə bazarlarında dayanıqlı kibertəhlükəsizlik mühitinin formalaşdırılmasını hədəfləmişdir:

- Maliyyə bazarlarında informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik üzrə tənzimləmə və nəzarət çərçivəsinin gücləndirilməsi;
- Maliyyə bazarlarında kiber risklərin idarə edilməsi mədəniyyətinin gücləndirilməsi;
- Maliyyə bazarlarında kibertəhlükəsizlik səviyyəsinin gücləndirilməsi məqsədilə informasiya texnologiyalarının idarəetmə çərçivəsinin formalaşdırılması;
- Maliyyə bazarlarında kiber dayanıqlığın gücləndirilməsi;
- Maliyyə bazarlarında informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik mədəniyyətinin formalaşdırılması.

Əlaqə üçün:

Biz hazırkı icmalın sizin üçün faydalı olmasına ümid edirik. Daha ətraflı məlumat üçün aşağıdakı mütəxəssislər ilə əlaqə saxlamağınız xahiş olunur:



Arzu Hacıyeva
Partnyor, Vergi və hüquq xidmətləri
Tel: +994 (12) 490 7020
arzu.hajiyeva@az.ey.com



Məmməd Balacanov
Baş Menecer, Hüquq xidmətinin rəhbəri,
Vergi və hüquq xidmətləri
Tel: +994 (12) 490 7020
mammad.balajanov@az.ey.com

## EY | Daha yaxşı iş dünyasını qururuq

EY şirkəti, müştərilər, əməkdaşlar və bütövlükdə cəmiyyət üçün uzunmüddətli dəyərin yaradılmasına və kapital bazarlarına inamın artırılmasına töhfə verməklə daha yaxşı iş dünyasının qurulmasına çalışır.
EY şirkətinin çoxprofilli komandaları dünyanın 150-dən çox ölkəsində təmsil olunur. İnformasiya və texnologiyalardan istifadə edərək əməkdaşlarımız məlumatların doğruluğunu təsdiq etməklə etimadı təmin edir və müştərilərə fəaliyyətlərini uğurla inkişaf və transformasiya etdirməyə kömək edirlər.
EY şirkətinin audit, konsaltinq, hüquq, strategiya, vergi və sövdələşmələr sahəsində mütəxəssisləri bu gün dünyamızın üzləşdiyi mürəkkəb məsələlərə yeni cavablar tapmaq üçün düzgün suallar verirlər.

EY adı, hər biri müstəqil hüquqi şəxs olan Ernst & Young Qlobal Limited qlobal şirkətlər şəbəkəsinin bir və ya daha çox üzvünə aiddir. Ernst & Young Global Limited, üzvlərinin zəmanətləri ilə məhdudlaşan Böyük Britaniya şirkəti olaraq, müştərilərə xidmət göstərmir. EY şirkəti tərəfindən fərdi məlumatların toplanması və istifadə edilməsinə dair məlumatlar, habelə məlumatların qorunması haqqında qanunvericiliyə uyğun olaraq fiziki şəxslərin hüquqları ey.com/privacy səhifəsində təqdim edilir. Daha ətraflı məlumat almaq üçün buraya müraciət edə bilərsiniz: ey.com

EY, Qafqaz və Mərkəzi Asiyadan olan şirkətlərlə əməkdaşlıq edir və onlara biznes məqsədlərinə çatmağa köməklik göstərir. Almatı, Bakı, Bişkek, Nur-Sultan, Daşkənd, Tbilisi və digər şəhərlərdə yerləşən 8 ofisimizdə 1300-dən çox mütəxəssis çalışır.

© 2023-cü il Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.
Bütün hüquqlar qorunur.

Hazırkı nəşr diqqət ilə hazırlanmışdır, lakin ona daxil edilmiş məlumat zəruri olaraq qısa xülasə şəklində təqdim edilir və buna görə də ümumi xarakter daşıyır və ətraflı araşdırmanın və ya peşəkar rəyin əvəzi kimi nəzərdə tutulmamışdır. "EY" hazırkı nəşrə daxil edilmiş məlumata əsaslanaraq hərəkət etmiş və ya etməmiş hər hansı şəxsə dəyən ziyana görə heç bir məsuliyyəti üzərinə götürmür. Hər hansı xüsusi hal ilə bağlı olaraq istinad müvafiq məsləhətçiyə edilməlidir.

ey.com/az